# Məqsədin varsa, ardınca getməlisən

## Səhnəmizin Məcnunu: "132 dəfə Üzeyir Hacıbəyovun ruhu qarşısında imtahan vermişəm"



**Uşaqlıqdan hansı işi görürsə, birinci olmağı qarşısına məqsəd qoyub. Onun bir prinsipi var: "Ya birinci ol, ya da heç olma". Böyük zəhmət, yuxusuz gecələr, daş-kəsəkli yollar onun birinciliyinə mane ola bilməyib... Müsahibimiz Azərbaycanın xalq artisti, Dövlət Akademik Opera və Balet Teatrının solisti, professor, səhnəmizin Məcnunu kimi tanınan xanəndə Mənsum İbrahimovdur. M.İbrahimovun həyat hekayəsinə nəzər salaq.**

### QAYĞISIZ İLLƏR...

Həmsöhbətimiz 1960-ci ildə Qafqazın konservatoriyası sayılan Qarabağda, Ağdamda anadan olub. 9 uşaqlı sadə azərbaycanlı ailəsində böyüyüb. Uşaqlığından hərbi xidmətə yollanana qədər Ağdamda yaşayıb. Hesab edir ki, Ağdamda keçirdiyi uşaqlıq illəri ömrünün ən gözəl və qayğısız illəridir: "Uşaqlığım çox gözəl keçib. Təbii ki, indiki kimi daha yaxşı yaşamırdıq. Amma biz xoşbəxt idik. Qayğısız uşaqlıq illəri ömrün ən gözəl çağlarıdır. Çox sakit, tərbiyəli, sözəbaxan uşaq idim. Qohum-əqrəba uşaqlarla bir yerə yığışıb oyunlar oynayırdıq. Yadımdadır ki, Novruz bayramını həsrətlə gözləyirdik. İki ay qabaqcadan hazırlaşır, xüsusi qeyd edərdik.Yumurta döyüşdürmək üçün hansı qonşunun çoxlu toyuq-cücəsi varsa, gedib ondan yumurta alardıq. Ənzəli, gizlənqaç kimi milli oyunlar oynayırdıq. Futbol ən sevdiyimiz oyunlardan idi. Kəndimizin yuxarı və aşağı məhəllləsi yığışıb komanda yaradırdıq. Hər həftə sonu yığışıb futbol oynayırdıq, bütün kəndin camaatı da bizə azarkeşlik edirdi".

### "SƏS-SƏSƏ VERİB OXUYURDUQ"

Müsahibimiz kəndin səfalı torpaqlarında qoyun-quzu otara-otara mahnı oxuyub. Deyir ki, kənddə görülməli bütün fiziki işləri görüb: "Ağdamın səfalı torpaqlarında kəndin uşaqları ilə səs-səsə verib quzu otara-otara muğamlar oxuyardıq. Bizim bölgədə hər iki nəfərdən birinin səsi olardu. Mən də ağlım kəsəndən bu sənətin içində olmuşam. Çox kiçik yaşlarımdan orta məktəbdə bayram tədbirlərində oxuyur, yarışmalarda iştirak edirdim".

Həmsöhbətimiz məktəbin də savadlı, sözəbaxan şagirdi olub. O deyir ki, məktəb illərində oxuduğu bədii əsərlər bu gün də köməyinə gəlir: "Məktəb fənlərini də yaxşı oxuyurdum. Xüsusilə də Azərbaycan dili, ədəbiyyat və tarixi sevir, fənn olimpiadalarında iştirak edirdim. Azərbaycan dili və ədəbiyyatı yaxşı oxumağım indi də sənətimlə bağlı çox köməyimə gəlir. Məktəbimizin kiçik kitabxanası var idi. Ora hansı təzə kitab gəlirdisə, onu götürüb uşaqlarla bir-birimizə ötürə-ötürə oxuyurduq. Mən Azərbaycanın bütün klassiklərini, dünya klassik ədəbiyyatını oxumuşam".

### "MƏQSƏDİN VARSA, ARDINCA GETMƏLİSƏN"

Həmsöhbətimiz hərbi xidmətdə də özünə ansambl yaradıb və pərəstişkarları olub: "Hərbi xidmətdə olarkən də muğamdan əl çəkmədim. Orada çoxlu azərbaycanlılar var idi, özümə pərəstişkarlar yığmışdım. Axşamlar bir yerə yığışıb oxuyurduq. Tar, qarmon, nağara çalanımız da var idi. Bayramlarda kiçik konsertlər verirdik".

Babasının adını daşıyan M.İbrahimov deyir ki, sənətini inkişaf etdirməyə və bu istiqamətdə təhsil almağa özü qərar verib: "Babamın adını mənə qoyublar. Onun çox gözəl səsi olub. Düzdür, xanəndə olmayıb, amma qarabağlı olduğumuz üçün bizim ailədə qardaşlarımın, atamın da səsi olub. Amma onlar bu sənətin arxasınca getmədilər. Ailəm xanəndə olmağıma normal münasibət bəsləyirdi, mənə dəstək olurdu. Lakin mənim təhsilin arxasınca Bakıya gəlməyim, xanəndəliyi sənət seçməyim öz fikrim olub. Atam əvvəlcədən demişdi ki, "çox ağır bir sənətin arxasınca gedirsən. Hər dövrün oxuyanları olur. Amma əgər bunu özünə sənət edəcəksənsə, əsl sənətkar ol. Uğur qazanıb 10 nəfərin içində seçilən sənətkar olmalı, çətinlikləri gözünün özününə gətirməlisən. Düşün, əgər bütün çətinliklərə dözə biləcəksənsə, get..." Təbii ki, düşündüm. Mən xaraktercə iradəli insanım. Hər zaman, lap uşaq vaxtlarımdan həyatda kim olmaq istədiyimi bilmişəm. Atamın sözlərindən sonra qarşıma məqsəd qoydum və o məqsədə doğru əzmkarlıqla, usanmadan getdim. Muğamın yolu çətindir. Bizim dövrdə də muğam sahəsində tanınmaq, qəbul olunmaq asan deyildi. Bu bir şou mahnısı deyil ki, çıxıb oxuyasan. Gənclərə münasibət indiki kimi deyildi, senzura var idi. Bəlkə də elə bu çətinliklər məni daha da möhkəmləndirdi. Əslində mən Qarabağda tanınır və müəyyən qədər tədbirlərə, toylara gedirdim. Muğamların 90 faizini bilirdim, amma düşündüm ki, mən bildiyim yetərli deyil və bunun məktəbinə getməli, professional şəkildə dərs alıb öyrənməliyəm. 1982-ci ildə Bakıya gəldim, sənədlərimi Asəf Zeynallı adına Musiqi Kollecinə verdim. O vaxt direktor Vasif Adıgözəlov idi. Cahargah dəstgahını oxudum. Vasif müəllim təsadüfən gəlib qəbul imtahanında iştirak etdi. İmtahandan 5 aldım. Yüksək balla məni musiqi məktəbinə qəbul etdilər. İlk müəllimim Vahid Abdullayev oldu. Muğamın sirlərini Vahid müəllimdən öyrəndim. Qəbul olduğum gündən fəallıq etməyə başladım. Məktəbdə yarışma keçirildi, birinci yeri tutdum. Sonra məktəbin bütün tədbirlərində, konsertlərində iştirak etməyə başladım. Həmin il müəllimə dedim ki, efirdə oxumaq istəyirəm. Müəllim məni hazırladı, Ağasəlim Abdullayevin ansamblı ilə çəkildim. Həmişə hər yerdə çalışmışam öndə olam. Oturmaqla, gözləməklə işim yoxdur. Hansı sahədən yapışırmsa, deyirəm ki, burada birinci olmalıyam. Tələbələrimə də həmişə onu aşılayıram ki, hər yerdə ya birinci ol, ya da olma. Boş iddia olmamalıdır. Əgər məqsədin varsa, ardınca getməlisən".

### "HƏYƏCANDAN DİZLƏRİM TİTRƏYİRDİ"

Müsahibimizin həyatı Şövkət Ələkbərova ilə rastlaşdıqdan sonra dəyişib. Səhnəmizin bu günkü Məcnununu bizə Şövkət Ələkbərova qazandırıb: "3-cü kursda oxuyanda Üzeyir Hacıbəyovun anadan olması ilə bağlı Respublika üzrə 5-ci musiqi festivalı keçirilirdi. Mən orada muğam üzrə iştirak etdim və birinci yer tuttum. Münsiflər heyətində Şövkət Ələkbərova, Gülağa Məmmədov, Nəriman Əliyev oturmuşdu. Mənə birinci diplomumu Şövkət xanım təqdim etdi. Şövkət xanımla tanışlığım ilk dəfə orada oldu. O, sonra məni öz sinfinə dəvət etdi. Bir gün Şövkət xanım soruşdu ki, operada oxumaq istəyirsənmi? Təbii ki, mən o barədə düşünməmişdim. Çünki tələbə idim. Operanın adı o qədər böyük, möhtəşəm idi ki, bilmirdim orada oxuya bilərəm, yoxsa yox. O dedi ki, sənin görkəmin, səsin əsl Məcnuna uyğundur. Əgər üzərində çalışsan, vaxt gələcək, ən yaxşı Məcnunlardan biri olacaqsan. Təbii ki, mənim uçmağa qanadım yox idi. Dedim ki, Şövkət xanım, əgər siz istəyirsinizsə, olaram. Operada bədii şura var idi. Şövkət xanımla birlikdə ora getdik. Gördük ki, çox böyük bir heyət yığışıb - xalq artistləri, dirijorlar, rejissorlar. 24-25 yaşım var idi. Həyəcandan dizlərim titrəyirdi. Oxudum, səsimə qulaq asdılar və məni təcrübə qrupuna götürdülər. Maaşım 80 rubl idi. İlk rolum kimi isə Məcnunun dostu Zeyd roluna çəkildim. Arif Babayev Məcnunu oxudu, Zeynəb Xanlarova Leylini, mən də Zeydi. Sənət həyatımda Şövkət xanımın rolu böyük olub. Şövkət xanımla rastlaşmasaydım, bəlkə də mən başqa yerdə olardım. 93-cü ildən bəri artıq 25 ilə yaxındır ki, operanın Məcnunuyam. Yüz otuz iki dəfə Məcnun kimi səhnəyə çıxmışam. Hər dəfə hesab edirəm ki, 132 dəfə Üzeyir Hacıbəyovun ruhu qarşısında imtahan vermişəm".



### MUSİQİMİZİN GÜCÜ

Gənc yaşlarından müəllim kimi fəaliyyət göstərən həmsöhbətimiz deyir ki, müəllimlik dövründə də ən yaxşı tələbələri yetişdirməyi qarşısına məqsəd qoyub: "Artıq tələbələrim sənət yoldaşlarımdır. Tələbələrim də hər dəfə birinci, öndə olublar. 50-yə yaxın ölkədə qastrol səfərlərində olmuşam. Latın Amerikasında ilk dəfə Reo-De Janeyroda Azərbaycanın mədəniyyət günləri keçirildi. Orada "Qarabağ şikəstəsi"ni oxudum. 2500 nəfərə konsert verdik. "Qarabağ şikəstəsi"ni oxuyub bitirdikdə, zal ayağa qalxıb bizi alqışladı, yenidən səhnəyə dəvət etdilər ki, son oxuduğunuz musiqini bir də ifa edin. Təsəvvür edin, dilini bilmədiyimiz Latın Amerikası bizə "Qarabağ şikəstəsini" ikinci dəfə oxutdurdu və ayaq üstə alqışladılar. O zaman gözlərim doldu və anladım ki, bizim musiqimizin gücü budur".

Müsahibimiz deyir ki, layiq görüldüyü bir çox fəxri adlar, titullar onun məsuliyyət yükünü daha da artırıb: "Bir insan əgər öz istədiyi sənətlə məşğul olursa, bu ona çox rahatdır. Bu yolda çox əzab-əziyyət çəkmişəm, manelər görmüşəm. Təbii, mən də hər bir insan kimi haqsızlıqlarla üzləşmişəm, daş-kəsəkli yollarda da getmişəm. Amma bunlara baxmayaraq, yolumdan dönməmişəm. Əsas odur ki, sevdiyim işlə məşğulam və istədiyim yerdəyəm. Amma hələ hər şeyi etmişəm deyə bilmərəm. Ürəyimdə arzularım çoxdu. Əlbəttə, fəxri adlar almışam, zəhmətimə qiymət verilməsi xoşdur. Amma mən bunun üçün çalışmamışam. İnsan öz işini yaxşı görəndə fəxri adlar özü gəlir. Hər dəfə mənə fəxri ad veriləndə düşünmüşəm ki, çiynimdəki məsuliyyət yükü daha da artır. Fəxri adlarla yaşamıram. Ad-soyadım mənə kifayətdir, xalq məni belə tanıyır. Tələbələrimə də hər dəfə deyirəm ki, çalışın öz əməliniz, şəxsiyyətinizlə xalqın yaddaşında qalın. Hansısa qalmaqal, dedi-qodu ilə yox".

### "KAŞ Kİ, DEYİRSƏNSƏ HƏR ŞEY BİTİR"

Həmsöhbətimiz deyir ki, həyatda ən çox uğur qazanan insanlar içində paxıllıq hiss olmayanlardır: "Uşaqlıqdan düzgünlük tərəfdarı olmuşam. Haqsızlığı sevmirəm. Həmişə Allahdan özümə səbr diləmişəm. Çünki səbrli insan düzgün qiymət verir. Allaha şükür edirəm ki, gözütox, şükür edən və kinsiz biri olmuşam. Çünki kinli, paxıl insan rahat yaşaya bilmir. Ən çox uğur qazanan o insanlardır ki, onlar paxıl deyil. Başqasının uğuruna sevinən insan uğurlu ola bilər. Mən istedadlı uşaqlara təmənna güdmədən köməklik edirəm, muğamı öyrədirəm. Bizim sənətimiz elə bir sənətdir ki, insanın içində oxumaq üçün xüsusi yanğısı olur".

Sonda gənclərə məsləhət verən həmsöhbətimiz vurğuladı ki, gənclər zamanın qədrini bilməli və tənbəllikdən uzaq olmalıdırlar: "Savadın, istedadın qarşısını kəsmək mümkün deyil. Səni gecikdirə bilərlər, amma qarşını kəsə bilməzlər. Allah sənə yol açırsa, heç kim səni bu yoldan döndərə bilməz. Gənclər gəncliklərinin qədrini bilsinlər. Nə qədər mümkündür öyrənsinlər. İnanın ki, qatar gedəndən sonra kaş ki, deyirsənsə, hər şey bitir. Heç vaxt kaş ki, deməsinlər. Hər şey anında, zamanında olanda, həyatın da boş-boşuna keçməyəcək. Həyatınızı yatmaqla ötürməyin. İnsanın həyatı çox qısadır. Ona görə də zamanının qədrini bilin".

**Aygün ƏZİZ**